**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AĞAHÜSEYN MƏMMƏDHÜSEYN OĞLU ŞÜKÜROV**

# ƏLİ TUDƏNİN YARADICILIQ YOLU

5716. 01. – Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2014**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** filologiya üzrə elmlər doktoru, professor
**Teymur Əkbər oğlu Əhmədov**

**Rəsmi opponentlər:** filologiya üzrə elmlər doktoru, professor
**Almaz Əli qızı Məmmədova**

filologiya üzrə elmlər doktoru, professor
**Rafiq Yusif oğlu Əliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti
" Azərbaycan ədəbiyyatı tarixi " kafedrası

Müdafiə " 10 " dekabr 2014-cü ildə saat -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131.-Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan**: Az 1143, Bakı, Hüseyn Cavid prospekti 115Akademiya şəhərciyi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt Zalı (IV mərtəbə)

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " " noyabr 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor** **İmamverdi Yavər oğlu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan ictimai-ədəbi fikri tarixində diqqətəlayiq xidmətləri olan ədəbi şəxsiyyətlərdən biri də Əli Tudədir. O, şair, nasir, publisist, tərcüməçi və siyasi xadim kimi geniş şöhrət qazanmışdır. Bunula belə, daha çox şair kimi diqqəti cəlb edir.

Əli Tudə öz yaradıcılığı ilə Azərbaycan ədəbi-ictimai fikrinə vətəndaşlıq ruhu, siyasi məzmunlu, istiqlal və parlaq istiqbal həsrətli poeziyanın inkişafında, məzmun və mündəricə baxımından zənginləşməsində özgün və xüsusi rol oynamışdır; zülmə və imperiya ağalığına nifrət, azadlıq eşqi, vətənin bütövlüyü, xalqın azadlığı uğrunda mübarizəyə çağırış, azadlıq mücahidlərinin vəsfi onun yaradıcılığının əsas leytmotivini təşkil edir. Onun ədəbi irsi ideyalılığı, tendensiyalılığı, siyasi kəsəri, fikir tutumu, fəlsəfi dərinliyi, sənədliliyi, mənəvi-əxlaqi xüsusiyyətləri baxımından da diqqəti cəlb edir. Ona görə də Əli Tudə yaradıcılığının tədqiqi əslində milli-tarixi, sosial-siyasi dərdlərimizin mühüm və konkret səhifələrinin araşdırılması deməkdir. Bu poeziya özgün deyim tərzi, üslubu, sənətkarlıq keyfiyyətləri ilə də seçilir. Bütün bu və digər həlli vacib məsələnin elmi təhlilinin vacibliyi dissertasiyanın mövzusunun aktuallığını şərtləndirir.

İndiyədək şairin ədəbi irsi geniş tədqiqata cəlb olunmadığına görə də mövzu aktuallıq kəsb edir. Şairin şəxsi arxivi XX əsrin ortalarında Cənubda gedən ədəbi, mədəni, eləcə də tarixi proseslərin öyrənilməsində qiymətli mənbədir. Dissertasiya işində bu problemlərə ilk dəfə olaraq əhatəli nəzər salınmışdır.

**Mövzunun işlənməsi.** Vaxtilə İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Hüseyn Abbaszadə, Balaş Azəroğlu, Xəlil Rza Ulutürk, Söhrab Tahir, Nəriman Həsənzadə, Hökumə Billuri, Cabir Novruz, Mirvarid Dilbazi, Qılman İlkin, Teymur Əhmədov, Şamil Salmanov, Sabir Əmirov, Nazim Rizvan, Sona Xəyal, Sədaqət Məmmədova, Mahmizər Mehdibəyova və başqaları Əli Tudənin şəxsiyyəti və yaradıcılığı haqqında elmi və elmi-publisistik məqalələr yazmışlar[1]. Lakin şairin həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı ilə bağlı problemlər sistemli şəkildə araşdırılmamış, onun şeirləri, povest və hekayələri, tənqidi və publisistik məqalələri, dili və üslubu haqqında geniş elmi-nəzəri

---

[1] Bax: Azəroğlu. Şair ömrü. "Ədəbiyyat qəzeti", 11 mart 1997; Billuri H. Əli Tudəni xatırlarkən. "Ədəbiyyat qəzeti", 28 fevral 1997 Əfəndiyev İ. Əli Tudə. "Kommunist" qəz., 17 yanvar 1948; Əhmədov T. Doğma vətənə xidmət etmişəm. "Respublika" qəz., 14 fevral 2009; Əmirov S. Vətənpədvərlik pafosu. "Ədəbiyyat və incəsənət" qəz., 23 iyun 1973; Yenə də onun. Rübabın nəğmələri. "Ədəbiyyat və incəsənət" qəz., 7 sentyabr 1984; Yenə onun. Günəşli baharın yarpaqları. "Ədəbiyyat və incəsənət" qəz., 8 fevral 1985; Yenə onun. Halal xoşbəxtlik. "Xalq qəzeti", 11 mart 1991; İbrahimov M. Qizil səhifələr. "Ədəbiyyat və incəsənət" qəz., 13 iyun 1996; Mehdi F. Yüksək ideallar şairi. "Kommunist" qəzeti, 31 yanvar 1984; Məmmədova S. Vətən həsrətli poeziya. AMEA-nın Xəbərləri (Humanitar elmlər seriyası). Bakı, Elm, 2008, n1, səh.39-47; Nəbioğlu S. Kökdən düşməyən rübab. "Vəfa" jurn., 2004, n3, səh. 35-37; Mənafi M. Məslək şairi. "Pioner" jurn., 1984, n4, səh.9; Rizvan N. Tellərdə çırpınan həsrətlər. "Azərbaycan müəllimi" qəz., 5 aprel 1985, Salmanov Ş. Vahid vətən hissi ilə. "Ədəbiyyat və incəsənət" qəz., 30 yanvar 2004; Xəyal S. Əli Tudə. Bakı, NBM, 2010 və s.

fikir söylənilməmişdir. Hazırda təqdim olunan dissertasiya işi Ə.Tudənin həyatı və yaradıcılığı haqqında ilk iri həcmli və əhatəli əsərdir. Bu mənada, təqdim olunan iş Ə.Tudənin siyasi xadim, şair və yazıçı, publisist, naşir, tərcüməçi və ədəbiyyatşünas kimi yaradıcılığının tədqiqinə həsr olunmuş bir təşəbbüs kimi dəyərləndirilməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın yazılmasında əsas məqsəd şairin həyatı, uşaqlıq və gənclik illəri, onu əhatə edən ədəbi mühit, şair kimi yetişib formalaşmasında müəyyən rol oynamış başlıca amillər və s.-nin araşdırılması, eləcə də Ə.Tudənin bioqrafiyasını sistemli şəkildə işləmək, bədii, publisistik əsərlərinin mövzu və ideya xüsusiyyətlərini, bədii məziyyətlərini, Cənubi Azərbaycanda azadlıq hərəkatının inkişafında xidmətlərini açıqlamaq, bunlara müasirlik baxımından qiymət verməkdən ibarətdir.

Bunun üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

-Əli Tudənin keçdiyi ömür yoluna elmi-nəzəri aydınlıq gətirmək;

-Ədibin yaradıcılığında daha çox diqqət yetirilən Azərbaycanın bütövlüyünün bərpası və vətən həsrətini doğuran məsələlərlə bağlı tarixi, siyasi və elmi-mədəni hadfisələrin aydınlaşdırılması;

-Ə.Tudənin yaradıcılıq yolunu dövrün müxtəlif tarixi, sosial-mədəni, siyasi və ideoloji prosesləri fonunda dəyərləndirməyə çalışmaq;

- Şairin poeziya və nəsr yaradıcılığının mövzu dairəsini və ideya-estetik xüsusiyyətlərini müəyyənləşdirmək;

-Bədii tərcümə sahəsindəki fəaliyyətinə qiymət vermək;

-Ədibin publisistikasını və ədəbi-tənqidi məqalələrini onun ümumi yaradıcılığı kontekstində təhlil etmək;

-Ə.Tudənin həyat və fəaliyyət yoluna, yaradıcılığında qaldırdığı problemlərə, əldə etdiyi uğurlara ədəbi-elmi ictimaiyyətin fəal diqqətinə qiymət vermək;

- Əli Tudənin həm də siyasi xadim kimi fəaliyyətinin ayrı-ayrı səhifələrinə aydınlıq gətirmək və s.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsasını** ədəbiyyatşünas-tənqidçilərin ədəbiyyat, sənətkar və zaman barədə fikirləri, ideya və mülahizələri təşkil edir. Həmçinin dissertant ədəbiyyatşünas alimlərdən Mirzə İbrahimov, İsa Həbibbəyli, Famil Mehdi, Şamil Salmanov, Teymur Əhmədov, Almaz Əliqızı, Vüqar Əhməd, İslam Qəribli, Sabir Əmirov (Nəbioğlu), Nazim Rizvan, Mirəli Mənafi, Esmira Fuad, Sədaqət Məmmədova, Sona Xəyal, Mahmizər Mehdibəyova və başqalarının Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı əsərlərində irəli sürülən elmi-nəzəri müddəalar ədəbiyyatşünaslığın uğurları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada ilk dəfə olaraq Əli Tudənin həyatı, mühiti, poeziya və nəsr yaradıcılığı, publisistikası, həyatının başlıca qayəsini təşkil edən ictimai-demokratik fəaliyyəti, ədəbi düşüncə və mülahi-

zələri, əsərlərinin bədii təsvir və ifadə vasitələri, dil-üslub xüsusiyyətləri tədqiqata cəlb olunmuşdur.

Əli Tudənin ədəbi və siyasi fəaliyyətinə dair bir sıra material və fakt ilk dəfə təhlilə cəlb edilib onun yaradıcılıq nümunələri, əsərlərinin mövzu, məzmun və ideyası ilə vəhdətdə dəyərləndirilmişdir. Ədibin poeziyasının əsas leytmotivini təşkil edən vətən həsrəti motivləri, siyasi kəsər və Azərbaycanın bütövlüyü uğrunda fəal mübarizəyə çağırış və şairlə bağlı elmi-nəzəri fikrində irəli sürülən mülahizələr ümumiləşdirilmiş, bəziləri inkişaf etdirilərək şair və publisistin həyat faktları ilə əlaqələndirilmiş, yeni nəzəri müddəalar irəli sürülmüşdür. Əli Tudənin həyat və yaradıcılıq yoluna elmi və ədəbi ictimaiyyətin fəal münasibətlərinin sosial-mənəvi və ideya-estetik səbəbləri müəyyənləşdirilmişdir.

Əli Tudənin nəsr yaradıcılığı, uşaqlar üçün yazdığı şeirlər, tərcüməçilik və publisistik fəaliyyəti, həmçinin sənət və ədəbiyyata baxışları ilk dəfə olaraq sistemli elmi təhlil obyektinə çevrilmişdir.

Vətəndaş şair, yazıçı və ictimai xadimin əsərlərinin nəşri məsələləri, onun şəxsiyyətinə və ədəbi irsinə dövlət qayğısı ilk dəfə bu dissertasiyada təhlil edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti, əsasən, Əli Tudənin həyat yolu və onun bədii yaradıcılığıdır. Dissertasiyada Əli Tudə yaradıcılığında lirikanın yeri, onun ideya-məzmun problematikası, uşaq şeirləri, bədii tərcümə və ədəbi tənqid sahəsindəki fəaliyyəti, poetika məsələləri, xalq poeziyası və klassik poetik ənənələr, şairin irsinin xəlqi mahiyyəti, bədii təsir imkanları barədə yeni, orijinal araşdırmalar aparılmışdır.

Təqdim olunan dissertasiya işində Ə.Tudənin həyatı, mühiti, şeir və poemaları, povest və hekayələri əsas tədqiqat obyekti kimi götürülmüşdür. Tədqiqata həmçinin Ə.Tudənin həyatı və fəaliyyəti, yaradıcılığı haqqında elmi, elmi-publisistik əsərlər, sənət, sənətkarlıq, poetika, sənət və həyat, ictimai-siyasi hərəkatın bədii ədəbiyyata təsiri və s. məsələlərlə bağlı filoloq alimlərimizin bir sıra tədqiqat əsərlərində yer almış fikir və mülahizələr də daxil edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əhəmiyyəti**. Tədqiqat Ə.Tudənin həyatı, mühiti, ictimai fəaliyyəti, şair, nasir, publisist və mühərrir kimi ədəbi-bədii irsinin təhlilini verməklə, aşkara çıxarılan yeni faktlar əsasında yaradıcılığının araşdırılmasına yardımçı ola bilər. Şairin həyatı, mühiti, çoxşaxəli yaradıcılığı, ictimai-siyasi fəaliyyəti barədə fikirlərdən onunla bir dövrdə yaşayıb yaratmış şəxsiyyətlərin ədəbi-bədii irsi barədə araşdırmalarda da istifadə etmək olar. Dissertasiyada əhatə olunmuş materiallardan və onlar barədə elmi-nəzəri mülahizələrdən Cənubi Azərbaycan ədəbiyyatı haqqında tədqiqatların aparılmasında bir mənbə kimi istifadə etmək faydalı olar.

**İşin aprobasiyası.** Dissertasiya Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində hazırlanmış, orada müzakirə edilmişdir. İşin əsas müddəaları ölkədəki və

xaricdəki elmi nəşrlərdə dərc olunmuş məqalələrdə öz əksini tapmış, beynəlxalq elmi konfransda məruzə edilmişdir. Bu mövzuda çap olunmuş məqalələri haqda elmi nəşrlərdə və mətbuat-da mütəxəssis alimlərin müsbət xarakterli fikirləri dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, obyekyi, tədqiqatın elmi yeniliyi, məqsəd və vəzifələri, elmi-nəzəri və metodoloji dəyəri, elmi-praktik əhəmiyyəti və s. məsələlərdən bəhs olunur. Əli Tudənin daim mübarizələrdə keçmiş həyatı, yaradıcılıq yolu, ədəbi-ictimai mühit, Azərbaycan ədəbiyyatına verdiyi töhfələr barədə ətraflı məlumat verilir. Ədəbi əsərlərin ümumazərbaycan ictimai ədəbi fikrinin inkişafındakı əhəmiyyəti müəyyən-ləşdirilir.

**Dissertasiyanın I fəsli "Əli Tudənin həyatı və ədəbi-ictimai mühit"** adlanır. "Uşaqlıq illəri" adlanan **birinci yarımfəsildə** Əli Tudənin valideynləri, Bakıda keçirdiyi məktəb illəri barədə geniş məlumat verilir. Qeyd edilir ki, onun əslən Cənubi Azərbaycanın Ərdəbil vilayətinin Çanaxbulaq kəndindən olan valideynləri XX əsrin ilk illərində Bakıya köçmüşlər.

Əli Tudə 1924-cü il yanvarın 31-də Bakı şəhərində anadan olmuşdur. Nakam tale Əlini çox erkən yaşlarında gözüyaşlı qoymuş, bir yaşında ikən atası, beş yaşı olanda isə anası dünyadan köçmüşdür. Bundan sonra Əli nənəsinin himayəsi altında böyümüşdür. "Bir zamanlar dahi rus şairi Aleksandr Sergeyeviç Puşkin öz dayəsindən xalq müdrikliyinin sirlərini öyrəndiyi kimi, körpə Əli də bir Simurq quşu kimi qanadlarını onun üzərinə gərərək hər cür ehtiyac və məhrumiyyətdən qorumağa çalışan nənəsi Qəribin tükənməz söz xəzinəsinin dinləyicilərindən olmuşdur."[2] Belə bir ağbirçək ocağının halal süfrəsinin başında Əli əsl hikmət məktəbi keçmişdir.

Şəhadətnamədə adı Heydər, soyadı isə Rzazadə yazılan balaca Əli 1931-ci ildə keçmiş Sovet küçəsindəki "Bədəlbəyin məktəbi" deyilən 1 nömrəli məktəbdə oxumağa başlayır. Bir dəfə sinif yoldaşlarından biri sinif otağının pəncərəsini sındırır. Müəllim şüşənin kim tərəfindən sındırıldığını sinif nümayəndəsi olan Əlidən bir neçə dəfə soruşur. O isə "bilmirəm" cavabını verir. Sinif rəhbəri özündən ixtiyarsız olaraq Əlinin sifətinə ərkyana möhkəm bir sillə vurur. Nənəsi səhəri gün məktəbə yollanır və sinif rəhbəri ilə görüşür. Müəllim Əlinin intizamlı, tərbiyəli və əlaçı olduğunu bildirərək deyir: "Məni o yandırır ki, niyə belə şagird qorxaq olsun? Bu uşağın

---

[2] Mehdibəyova M. Cənubi Azərbaycan mühacirət nəsri (1947-1990-cı illər). Bakı: Nurlan, 2007, s.50

qarşısında hələ enişli-yoxuşlu həyat yolu var. O, cəsarətlə yaxşını təqdir, pisi isə tənqid etməlidir.”[3] Qəlbi onsuz da sınıq olan Əli bu olaydan möhkəmcə sarsılır və bir də həmin məktəbə ayaq basmır. Bu dəfə Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi qazamatın yanındakı məktəbə girir. Həmdulla müəllimin silləsinin səsi onun qulaqlarında ömrü boyu yaxşını təqdir, pisi isə tənqid etmək kimi bir cəsarət siqnalına döndüsə, pəncərələri qazamatın həyatinə açılan məktəbdə oxuduğu müddətdə isə necə yaşamağı, azad, təmiz, mərd, nəcib, xeyirxah ömrün mənasını öyrənir. Əli həmin həyatdə həm məktəb, həm də həyat dərsi keçir. 3-4-cü siniflərdə oxuyanda rəssamlığa böyük həvəsi yaranan Əli bu məktəblə də vidalaşıb 150 nömrəli məktəbə girir. Şəxsi mütaliəsi, ədəbiyyata olan güclü meyli müəllimi Firudin Vəlibəyovun nəzərindən yayınmır. Səmimi insan olan Firudin müəllimin qayğısı ilə Əlinin yazıb-yaratmağa həvəsi və marağı daha da yüksəlir; arabir şeir yazır. Məktəbli Əli 1937-ci ilin yazında məktəbdə keçirilən bir müsamirədə valideynlər qarşısında “Yeni yol” qəzetində yenicə çapdan çıxmış “Vətən nəğməsi” adlı ilk şeirini oxuyur. Ədəbiyyat müəllimi Firudin Vəlibəyov səhnəyə çıxaraq əlaçı Əlini o ki var, tərifləyir və yetim olduğunu, kasıbçılıqla böyüdünü bildirir. Əli səhnə qarşısında üst-başına ani nəzər yetirir və utandığından qıpqırmızı qızarır, sir-sifətini xəcalət təri bürüyür. Bunu duyan Firudin müəllim isə sözünü belə tamamlayır: “Lakin bu oğlanın gələcəyi zəngindir. Bu oğlan ilhamlı ürəyinin şaqraq nəğmələri ilə bir salonu deyil, neçə-neçə salonu sevindirə biləcəkdir.”[4] Bu sözlərdən sonra Əli sanki yetimçiliyini unudur, ani olaraq qürur hissi keçirməyə başlayır. Elə həmin gündən də o, ovaxtkı Bakı Mərkəzi Pionerlər Evinə gələrək sarayın nəzdində şair Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinə üzv yazılır. “Dərnəyin ilk rəhbəri şair Osman Sarıvəlli idi. Ancaq bir az sonra dərnəyə şair İsmayıl Soltan başçılıq etdi. Bu dərnəyə Şıxəli Qəhrəmanzadə (Qurbanov), Teymur Əlizadə (Elçin), İsmixan Rəhimov da gəlirdi.”[5] İ.Soltan dərnək üzvlərini şeir gecələrinə aparır, uşaqlar Bakı radiosunda öz şeirlərini oxuyurdular. Burada təzə yazılan şeirlər müzakirə olunur, bəyənilən yazılar sonradan dərnəyin hazırladığı almanaxda çap olunurdu. 1938-ci ildə o vaxt belə adlandırılan Mərkəzi Pionerlər Evinin almanaxında “Oktyabr rayonu 150 nömrəli məktəbin yeddinci sinif tələbəsi Heydər Rzazadə” imzası ilə Əlinin iki şeiri şəkli ilə birgə çap edilmişdir. Bu imza ilə 1937-ci ildə onun “Sovet Konstitusiyası” şeiri “Kommunist”, “Vətən nəğməsi” şeiri isə “Yeni yol” qəzetlərində dərc olunmuşdur.

**İkinci yarımfəsildə** (“Təbriz dövrü”) qeyd edilir ki, 1937-ci il Şimalda yaşayan cənublular da repressiyaya məruz qalırlar. 1938-ci ilin yazında 14 yaşlı Əlini də nənəsi ilə birgə İrana sürgün edirlər.

---

[3] Əli Tudənin şəxsi arxivi

[4] Əli Tudənin şəxsi arxivi

[5] Yenə orada

Yeniyetmə Əli Cənub kəndlilərinin ağır və məşəqqətli həyatına acıyırdı. Bir dəfə o, bu qəbildən olan "Cütçü" şeirini yazır və ilk dəfə onu nənəsinə oxuyur. Bu şeirdə əkib-biçən, zəhmətə qatlaşan insanlara təlqin olunur ki, üsyan qaldırıb haqqını tələb etmək, "ağalıq qəsrini dağıtmaq" lazımdır:

...Əgər istəsən ki, təmin olasan
Torpaqla, məhsulla, suyla, toxumla,
Xışı at... kotan tap, nəhəng bir kotan,
Qabaqca ağalıq qəsrini şumla!

Əli Miyana-Zəncan dəmir yolunda və Qızıl Üzən çayının sahilində fəhlə işləyir. Bu iş yerləri Əlinin dünyagörüşündə əhəmiyyətli iz buraxır.

Özündəndeyən, "güney təpədəki iri bir daşı səngər edib əmniyyələrlə vuruşan" Xanların (şəxs adıdır – A.Ş.) varlıların taxılını kasıblara paylaması, bir müddət Tehranda yaşamış Qorxmazın ağalarla mübahisəsi və bir ağanı vurub selə yıxaraq "biz sizinçün nökər doğulmamışıq" deməsi və s. bu kimi hadisələr gənc Əlinin gözləri qarşısında baş vermişdi. Ə.Tudə bununla bağlı öz xatirələrində yazırdı: "Qorxmazın harın ağaya vurduğu yumruq Çilgəzidə (Savalan ətrafında kənd – A.Ş.) istismara endirilən ilk zərbə idi."[6]

Böyük arzularla yaşayan Əli Tudə 1944-cü ilin yayında İran Xalq Partiyasının (İXP) Ərdəbil Vilayət Komitəsinə gedərək partiya sıralarına keçir. Ona burada "Tudə" təxəllüsü verilir və bu adla da üzvük bileti təqdim edirlər. Çox keçmir ki, Əli şəhərə gələrək İXP-nin Ərdəbil komitəsi tərəfindən təşkil edilən, Çahargahda yenicə başlayan inqilabi izdihama qoşulur. Onun döyüş yolu da məhz elə bu qaynar izdihamın içərisindən başlanır.

Sovet İttifaqının Ərdəbildəki konsulu Mirzə Məmmədov ona Təbrizdə buraxılan "Vətən yolunda " qəzetində dərc edilmiş "Stalin" şeirini göstərib tərifləyir. 1944-cü ildə işıq üzü görmüş bu şeir onun Cənubi Azərbaycanda çap olunmuş ilk əsəri olur. Konsulun təklifi ilə elə o gündən komitədə işləməyə başlayır. İş yoldaşlarıyla birgə pay-piyada uzaq kəndlərə gedir, kütlələr arasında inqilabi iş aparır. Mitinqlərin ardı-arasının kəsilmədiyi günlərdə gənc şair qələm dostları ilə birgə xitabət kürsüsündən insanlara mübarizə, azadlıq, səadət yolu göstərən şeirlərini oxuyur. Bu şeirlər "Yumruq", "Ziddi-faşist", "Cövdət", "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq" məcəlləsində çap edilirdi.

Əli Tudə Ərdəbil Vilayət Partiya Komitəsinin nəzdində yaradılmış şeir məclisinin fəal üzvlərindən biri idi. Məclisdə oxunub bəyənilən şeirlər "Ziddi-faşist" qəzetində çap olunur, seçilmiş şeirlərdən ibarət kitablar da buraxılırdı. Kitabların nəşri Əli Tudəyə tapşırıldığından günün çox hissəsini mətbəədə keçirirdi. Bu zaman o, naşirlik sənətinə də yiyələnir.

---

[6] Əli Tudənin şəxsi arxivi

Ə.Tudə 1945-ci ilin may ayında ilk dəfə Təbrizə gedir. Bu, "Vətən yolunda" qəzetinin Ərdəbil şairlərini dəvət etməsi ilə baş tutur. Təbriz şəhərinin mərkəzi xiyabanında yerləşən "Vətən yolunda" qəzetinin redaksiyasında Sovet Azərbaycanının tanınmış söz ustalarından Mirzə İbrahimov, Rza Quliyev, Cəfər Xəndan, İsrafil Nəzərov, Ənvər Məmmədxanlı, Əvəz Sadıq, Qulam Məmmədli, Qılman İlkin, Seyfəddin Dağlı ilə görüşən Ə.Tudə Ərdəbil şairləri ilə birgə "Şairlər məclisi"nin növbəti məşğələsində iştirak edir. Təbriz haqqında ilk şeirini də məhz bu zaman yazır. Canlı, mənalı, faydalı müzakirələr, mülahizələr və mübahisələr şairin ədəbi həyatında dərin iz buraxır.

1945-ci ilin 12 dekabrında yaradılan Milli hökumət coşqunluqla geniş fəaliyyətə başlayır. İnqilabın qələbəsindən sonra maarif nazirliyinin sərəncamına göndərilən Əli Tudə burada tədris şöbəsinin müdiri təyin olunur.

1946-cı ilin yazında Azərbaycan milli hökuməti İran tarixində ilk dəfə olaraq Təbrizdə Azərbaycan Dövlət Filarmoniyası açılması barədə qərar verir. Bu yeni sənət ocağına 22 yaşlı Əlini müdir təyin edirlər. Filarmoniyanın açılışı sentyabrın 2-də baş tutur. Əvvəlcə firqənin MK sədri Seyid Cəfər Pişəvəri alovlu nitq söyləyir. Sonra bəstəkar Hacı Xanməmmədovun müşayiəti ilə möhtəşəm konsert olur. Azərbaycan himni səslənir. Sovet mədəniyyət evində fəaliyyət göstərən gənc və istedadlı bəstəkar Cahangir Cahangirovun Milli orkestrin yaranması, formalaşması, fəaliyyətində unudulmaz əməyi olmuşdur. O, Azərbaycan milli hökumətinin sürudunu (himnini – A.Ş.) yaratmış, "Fədailər marşı"nı bəstələmiş, "Təbrizim" mahnısını nota salmışdı. Hər üç musiqi əsərinin sözlərini Mirmehdi Etimad yazmışdı. Sonralar C.Cahangirov "Arazın o tayında" adlı simfonik poema yazır və bu zaman Ə.Tudənin eyniadlı poemasından istifadə edir. Bu simfonik poema sonradan SSRİ-nin dövlət mükafatına layiq görülür.

"Azərbaycan" qəzeti Təbrizdə nəşrə başladığı gündən geniş oxucu kütlələrinin dərin hüsn-rəğbətini qazandı. Qəzetin redaktoru Fəthi Xoşginabi ilə yaradıcılıq əlaqələrindən doğan səmimi münasibət yaranmışdı. Əli Tudənin S.C.Pişəvəriyə həsr etdiyi "Bayraqdar" şeiri ilk dəfə məhz bu qəzetin səhifələrində çap olunmuşdu. Şairin o ağır günlərdə yazdığı "Günəş", "Vətən çağırışı", "And", "Yaxşıdır" və s. şeirləri ilk dəfə "Azərbaycan" qəzetində işıq üzü görmüşdü.

Həmin dövrdə Ə.Tudə Mirmehdi Etimad, Balaş Azəroğlu, Məhəmməd Biriya, jurnalist, natiq Mirrəhim Bilayi ilə birgə müxtəlif tədbirlərdə iştirak etmişdir. Bütün bu görüşlər Əli Tudənin həyat və yaradıcılığında özünəməxsus iz qoya bilmişdir.

Lakin 1946-cı il dekabrın 12-də şahın ordusu Azərbaycana soxulur və Milli hökumətin fəaliyyətinə son qoyulur. Hökumət üzvlərinin çoxu, o cümlədən, Əli Tudə də bir sıra məsləkdaşları ilə birlikdə Culfa tərəfdən Sovet Azərbaycanına keçirlər.

**Üçüncü yarımfəsil** ("Bakı həyatı") şairin yenidən Bakıya dönməsi, buradakı həyat və fəaliyyətini əks etdirir. Bakıda İran konsulxanası fəaliyyət

göstərdiyinə görə, bu taya keçən şairlər mətbuat səhifələrində başqa imzalarla çıxış etməyə məcbur olurlar. Əli Tudə də öz şeirlərini bir müddət C.Səbri imzası ilə (burada “C.” hərfi “Cavadzadə” mənasındadır – A.Ş.) çap etdirir. Konsulxana Bakıdan köçüb gedəndən sonra hamı öz imzasını bərpa edir.

...Bir gün Cənubdan gəlmiş şair və yazıçıları Səməd Vurğun qəbul edir və Ə.Tudənin "Ədəbiyyat qəzeti"ndə işləməsinə qərar verilir... Ədəbiyyatşünas-tənqidçi M.C.Cəfərin redaktorluğu ilə nəşr olunan “Ədəbiyyat qəzeti”ndə ədəbi işçi vəzifəsinə işə düzələn Əli Tudə burada görkəmli şair və yazıçılarla yaxından ünsiyyətdə olur.

Əli Tudənin “İnqilab və mədəniyyət” jurnalında çap olunan “Bakının işıqları” şeirini bəyənərək kabinetində ucadan oxuyan S.Vurğun bu şeirə münasibətini özünəməxsus şəkildə gözəl bənzətmə ilə bildirir: “Bu vəzn (13-lük heca – A.Ş.) sakit səhrada gedən dəvə karvanının ləngərli avazını xatırladır.” [7]

Bu gün Əli Tudənin evində saxlanılan arxivdə Mərkəzi Komitənin katibi Həsən Həsənov, akademik Heydər Hüseynov, dekan Cəfər Xəndan, müəllimləri Mikayıl Rəfili, Əli Sultanlı, yazıçı və şairlərdən Süleyman Rüstəm, Əli Vəliyev, Əbülhəsən, Süleyman Rəhimov, Məmməd Rahim, Mirzə İbrahimov, Rəsul Rza, Məhəmməd Biriya, Abbas Pənahi (Makulu), Hüseyn Abbaszadə, Sabit Rəhman, Əhməd Cəmil, Seyfəddin Dağlı, Tələt Əyyubov, Böyükağa Qasımzadə, Balaş Azəroğlu, Mədinə Gülgün, Əliağa Kürçaylı, İslam Səfərli və başqaları ilə bağlı unudulmaz xatirələri də yer alıb. Bu görüşlər şairin yaradıcılığına əhəmiyyətli təsir göstərmişdir.

1947-ci ildə S.C.Pişəvərinin tövsiyəsi ilə indiki BDU-nun filologiya fakültəsinə daxil olan Əli Tudə 1952-ci ildə oranı fərqlənmə diplomu ilə bitirir və “Azərnəşr”ə redaktor vəzifəsinə göndərilir. Sonradan Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsinə təyin edilmiş Ə.Tudə 1952-1962-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Azərbaycan Demokratik Fırqəsinin orqanı olan "Azərbaycan" qəzetində ədəbi şöbənin müdiri vəzifələrində işləyir.

1958-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvü olmuş şair 1960-cı ildə Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü seçilmişdir.

Əli Tudə 1996-cı il fevralın 26-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.[8]

**Dissertasiyanın II fəsli “Əli Tudənin bədii yaradıcılığı”** adlanır. **Birinci yarımfəsildə** (“Lirik şeirləri”) Ə.Tudənin şeirləri təhlil olunur. Qeyd edilir ki, o, bədii yaradıcılığa şeirlə başlamış, ilk şeiri hələ yeddinci sinifdə oxuduğu zaman çap olunmuşdu. Yeniyetmə çağlarında döyüşlərə atılan Ə.Tudə Vətənin azadlıq mübarizəsinə qoşulmuşdu. “O heç vaxt sakit bir

---

[7] Əli Tudənin şəxsi arxivi

[8] “Azərbaycan” qəzeti, 1996, 29 fevral, səh.4

duracaq, başını soxub gizlədəcək xəndək axtarmırdı. Şair bayrağını yüksək tutan şərəfli əsgər kimi həmişə döyüşlərin ön cərgəsində oldu və orada mərd-mərdanə dayandı."[9] Şeirlərində **azadlıq duyğularını** qələmə alan Əli Tudə millətin istiqlalı uğrunda canı ilə, qanı ilə mücadilə apardı. O, yaxşı bilirdi ki, "Vətənin bütövlüyü yalnız əxlaqi-estetik keyfiyyət deyildir, o, hər şeydən əvvəl milli tarixi vicdanı oyatmaq və özünəqayıdışdır. Ciddi, ağır istiqlalçılıq borc və vəzifəsi dünya-bəşər tarixində şərəfli yer tutmaq, yaşamaq haqqı və əzmidir." [10] O, belə bir borc və vəzifə ilə azad Azərbaycan naminə heç kimdən, heç nədən qorxub-çəkinmədi:

O qaldırsın deyə bükük belini
Başından keçmədi yetən yolunda.
Kimi ayağını, kimi əlini,
Mən başımı qoydum Vətən yolunda!

Təsadüfi deyildir ki, "kəskin siyasi mövzular şairi" Əli Tudənin şeirləri "qəzəb və nifrət, kədər və ümidlə dolu" bir poeziya təsiri bağışlayır. [11]

Ə.Tudə şah rejiminə qarşı çıxaraq üsyankar və mübariz ruhlu şeirləri ilə Azərbaycan poeziyasında siyasi lirikanın gözəl nümunələrini yaratmışdır.

**Vətən məhəbbəti** Əli Tudə yaradıcılığının əsas qayəsini – ana xəttini təşkil edir. Hansı kitabını açıb-vərəqləsən, görərsən ki, orada şimallı-cənublu Azərbaycanın dərd-sərindən, gündəlik qayğılarından, əsrarəngiz təbiətindən, zəhmətkeş insanlarından... danışılır. Onun müxtəlif illərdə qələmə aldığı "Azərbaycan torpağı", "Xalq", "Vətən bayatıları", "Azərbaycan olmasa", "Vətənin vüqarı", "Vətən məhəbbəti", "İstiqlal şəhidləri", "Anasan, fərman ver", "Sağlıq", "Şükür deyirik", "Ölmək istəmirəm", "Azərbaycan" və s. şeirləri məhz bu qəbildəndir. Akademik Mirzə İbrahimov yazırdı: "Vətən eşqi böyük, əzəmətli, müqəddəs duyğudur. Onun həsrətə çevrilməsi isə ancaq böyüklüyünü, əzəmətini təcəssüm etdirir: İnsanın bu ağır imtahandan qalib çıxması, öz müqəddəs həsrətinə qovuşması isə insanın həm idrakı və mənəvi, həm də fiziki qüvvələrinin tükənməzliyinə dəlalət edir."[12]

Məhz belə bir tükənməz enerji ilə yazıb-yaradan Əli Tudənin yaradıcılığında **ayrılıq, həsrət motivli şeirlər** əhəmiyyətli yer tutur.

Vaxtilə Azərbaycan ədəbiyyatında ayrılıq mövzusuna geniş müraciət olunmuşdur.

Əli Tudənin "Vətən həsrəti", "Təbriz notları","Dözüm", "Şəhid arzular", "Ayrılıq", "Ay Araz", "Təbriz yadıma düşdü", "Savalanın quzey qarı","Etiraz", "Hanı", "Sərhəd","Qürbət bayatıları", "Səfər arzusu", "Təbrizdə qış səhəri" və s. bu kimi şeirləri də ayrılıq mövzusunda olub özünəməxsusluğu ilə fərqlənir. Şairin "Mən səni görsəydim" şeiri Təbrizə

---

[9] Cavadzadə E. Redaktordan / Tudə Ə. Mənim səsim. Bakı: Azər- baycan, 2002, s.14

[10] Əsgərli Ə. Milli istiqlal mücahidi. Bakı: Elm, 2005, s.108

[11] Гусейн М. Об авторе./ Туде А. Кеманча и знамя. Москва, Советский писатель, 1969, 78 с.3

[12] İbrahimov M.Vətən eşqi, vətən həsrəti."Vətən həsrəti"qəz.,1993, 22 yanvar, səh.2

ünvanlanıb. Gülüstan bağının, Şişəgər meydanının, Əmirbazarının, Kəcil qapısının... gözləri önündən çəkilmədiyi doğma şəhərindən uzaq düşən qəlbi niskilli vətənpərvər söz ustadı gəncliyini keçirdiyi yerlərin xiffətini çəkir:

-Təbriz! – söyləməkdən dilim doymadı,
Uzatdım, çatmadı əlim qoynuna.
Sən məni çağırdın... Kimsə qoymadı
Ana nisgiliylə gəlim qoynuna.

Şair hətta Vətənin səmalarında azad qanad çalan durnalara belə həsəd aparır; o da bir durna olub həmin dəstəyə qoşulmaq, heç olmasa bircə dəfə yolunu Təbrizdən salmaq istəyir.

Əli Tudənin sağlığında nəşr etdirdiyi kitablarının hamısı - birincisindən ("Cənub nəğmələri". Bakı, Azərnəşr, 1950) tutmuş sonuncusunadək ("Mənə elə baxma". Bakı, Gənclik, 1990) məhz Cənub həsrətilə yoğrulub.

Əli Tudə şeirlərində ümumbəşəri dəyərlərə üstünlük verir, optimist düşüncələrlə bütün bəşər övladlarına bütövlük, birlik, sülh, əmin-əmanlıq arzulayır. Məhz elə bu səbəbdəndir ki, "Şairin lirikasında mövzu ilə ideya arasında ayrılmaz bir vəhdət mövcuddur. Buna görədir ki, şairin nifrəti də, məhəbbəti də məhdud çərçivəyə sığmır və ümumbəşəri məzmun kəsb edir."[13]

Şair on illərlə həsrət qaldığı doğma yurd-yuvasının nisgilini ömrü boyu yaralı, lakin həmişə sevincə, xoş arzulara ümid bəsləyən qəlbində saxlayaraq Təbrizi, Savalanı, Savalan ətəyindəki dədə-baba yurdunu – Çanaxbulaq kəndini görmək, həmin dağ ətəklərini, buradakı kəndləri seyr etmək, Savalanın havasını udmaq arzusu ilə yaşayırdı. Çünki "bircə addımlıqdakı" el-obasına həsrət qalan şair, burada az qala "əlini uzatsaydı", o yerlərə çata bilərdi. "Kəndimizi istəyirəm"[14] şeirində lap uşaq kimi:

Mənə "şair balam" deyən,
"Şeir-sənət qalam!" deyən,
Durnalardan salam deyən
Kəndimizi istəyirəm.

-deyən şair doğma yurd sevgisi ilə cəmi bircə dəfə Yardımlı rayonuna gedə bilmiş, onda da duman bürüyən Savalanı görmək ona nəsib olmamışdı.

Şair dərin dərin kədərlə dolu təəssüf hisslərini əmisi gəlininə xitab etdiyi 15 bəndlik "Mehri" şeirində qələmə almış, lakin bu şeirdə də gələcəyə inamını itirməyərək haqq-ədalətin nə vaxtsa öz yerini tutacağını nikbinliklə bildirmişdir:

...Dərində saxlayır hər sirrini haq,
Bir gün tapacaqdır öz yerini haq...[15]

Öz məhsuldar, əhatəli yaradıcılığı ilə Cənubi Azərbaycan demokratik ədəbiyyatının təməlini qoyanlardan biri olan Əli Tudənin arzuları böyük idi.

---

13 Fuad E. Bir sevgi nəğməsi oxuyurdum mən!.. "Respublika" qəz., 2 fevral 2005, 2 fevral, s.6

14 Tudə Ə. Nəğməli gecələr. Bakı: Yazıçı, 1981, s.104 -107.

15 Tudə Ə. Mənim səsim. Bakı: Azərbaycan, 2002, s.181

Ölümündən üç il əvvəl şair "“Vətən həsrəti” qəzetinin baş redaktoru Teymur Əkbəroğluna” başlıqlı açıq məktubunda yazmışdı: “Vətən həsrəti yaman şeydir. Mən çox yazmışam. Ancaq ürəyim yenə də soyumamışdır.”[16]

**Əli Tudə təbiət vurğunu** olaraq dağları, daşları, çayları, gülləri, otları, quşları, heyvanları - ümumiyyətlə, Azərbaycanın hərəsi bir dastan olan təbiət abidələrini sevə-sevə şeirə gətirirdi. 1976-cı ildə yazdığı “Bahar görünür” şeirində şair sözün qüdrəti ilə elə bir bədii lövhə yaratmışdır ki, ilin hansı vədəsində yaşamağından asılı olmayaraq sanki allı-güllü bahar fəslindəsən və quşların cəh-cəhini, durnaların sədasını, çayların şırıltısını eşidirsən, gül-çiçəyin ətrini duyursan.

“Novruz bayramı” şeirində orijinal ab-hava hökm sürür: burada həm bahar tərənnüm edilir, həm də xalqımızın minilliklərdən süzülüb-gələn milli bayramı özünəməxsusluğu ilə qələmə alınır. Lakin vətənpərvər şairin qəlbindəki nisgil bu əziz gündə də onu tərk etmir. Axı bu gün hamı doğmalarının qapısını açır, əzizlərinin görüşünə gedir, hal-əhval tutub bayramlaşır, küsülülər barışaraq şadyanalıq edirlər. Şair isə milyonlarla soydaşımız kimi, o taylı qardaş-bacılarımızla mümkün olmayan bayramlaşmağın üzücü xatirələrini unuda bilmir. Əli Tudənin 1978-ci ildə yazdığı “Salam, təzə il!”[17] şeiri “ənənəvi” sonluqla tamamlanır:

Vüsal təranəli həsrətin yolu
Bir də uzanmasın!..[18]

Bəşəri ideyalara sadiqlik, insanlara sülh və səadət arzusu Ə.Tudənin təbiət mövzusunda yazdığı əsərlərin də məğzini təşkil edir. Bu əsərlərdə Bakı, Təbriz, Savalan, Xəzər, Araz, Sərab, Ənzəli, Xalxal, Heran, Meşkin, eləcə də “Qatar qaya” (qaya adı), “Yeddi bölük”,“Sərdaba” (bulaq adları), “Pələngli” (yaylaq), “Hacı Əmir” (gədik), ”Qırmızı körpü” (körpü) yer adları coğrafi ərazi və toponimlər kimi xarakterizə edilsə də, eyniadlı şeirlərdə xüsusi vurğulanan hisslərin ümumbəşəri anlamı açıqca duyulur.

**Əli Tudənin poeziyasında məhəbbət mövzusu önəmli yer tutur**. Şairin bütün kitablarında sevgi şeirlərinə rast gəlirik. Həmin şeirlərdə saf məhəbbət, ülvi eşq, gözəlin vəsfi kimi lirik duyğular öz dolğun poetik həllini tapır, xoş ovqat yaratmaqla yanaşı hər addımda insanı təsirləndirir. “Gülü bir fəsil yox, hər fəsil yaşayan sevgi”[19] milyon illərdir ki, insan duyğularına hakim kəsilərək onu az qala həyatın mənasını dərk etməyə qədər gətirib çıxara bilmiş, ilahi qüdrətilə bəşər övladını kamilləşdirmişdir.

---

[16] Tudə Ə. “Vətən həsrəti” qəzetinin baş redaktoru Teymur Əkbəroğluna. “Vətən həsrəti” qəzeti, 1993, 22 yanvar, səh.3

[17] Tudə Ə. Yarımçıq dastan. Bakı: Azərbaycan, 2004, s.116

[18] Yenə orada, s.118

[19] Yenə orada, 2004, s.171

“Leyli-Məcnun sevgisi”[20] haqqında isə xüsusi danışmağa dəyər. Şair şeirin əvvəlində Leyli ilə Məcnunun dillərdə dastan olmuş sevgisindən özünəxas tərzdə danışır, misal çəkir və 1990-cı ilin 20 yanvar gecəsində şəhid olmuş İlhamdan, onun bu ayrılığa tab gətirməyərək özünə qəsd etmiş həyat yoldaşı Fərizədən danışır.

Əli Tudənin məhəbbət lirikası özünəməxsus cəhətləri ilə fərqlidir. Bu şeirlər yardan çox Vətəni xatırladır desək, yəqin ki yanılmarıq. Dönməz və döyüşkən təbiətli şairin sevgi şeirlərinin də lirik “mən”i məhz mübarizliyi və yolundan dönməzliyi ilə diqqət çəkir. Bu əsərlərdə milli-mənəvi dəyərlər, klassik Şərq özünəməxsusluğu da özünü qabarıq şəkildə biruzə verir.

Əli Tudənin çoxşaxəli yaradıcılığında **uşaq şeirlərinin** də xüsusi yeri vardır. “Xətt” şeirində düzlük və mərdlikdən, “Qayğı” şeirində böyüklərə hörmət və məhəbbətdən, “Məstan”da heyvanlara qayğıdan, “Gülzar” əsərində nəvə-nənə məhəbbətindən danışılır. Şairin yaradıcılığının bu sahəsi də öz mündəricə zənginliyi ilə seçilir...

II fəslin **ikinci yarımfəslində** (“Poemaları”) şairin poemaları təhlil obyekti kimi seçilmişdir. Professor Şamil Salmanov Əli Tudə poemalarının qiymətini doğru-düzgün olaraq belə verir: “... Öz əsas ruhu, öz əsas qayəsi etibarilə bu poeziya həm lirik forması ilə, həm də öz epik vüsəti ilə birdir, vahiddir, bütöv bir poetik aləmdir.”[21] Əli Tudənin 1996-cı ildə çapdan çıxmış “Təbriz yolu” kitabında verilmiş “Şair həyatının nəğmələri” və “Görüş ömrü” poemaları bu baxımdan əhəmiyyətlidir. Həmin əsərlərdə Cənub mövzusu başlıca istiqamət kimi götürülsə də hər iki poema şair həyatının fəlsəfi inikasına çevrilir, vətənin azadlığı, xəlqilik və vətənpərvərlik duyğuları önə çəkilir. Poemalar müasirlik baxımından da böyük əhəmiyyətə malikdir.

Əli Tudənin müxtəlif illərdə qələmə aldığı poemalar içərisində Cənub mövzusu qırmızı xətlə keçir. “Arazın o tayında” (1954), “Yaralanmış nəğmələr” (1964), “Yanıqlı tütək”(1966), ”Mehabadlı tələbə” (1968), “Hicran yolu” (1981), “Çanaxbulaq dastanı” (1984), “Əbədi nisgil” (1984), “Gecikmiş vüsal” (1988), “Ayrılmış sahillər” (1996), “Görüş ömrü” (1996) və başqa poemaları məhz bu səpkidədir. Həmin əsərlər bu gün də öz əhəmiyyətini qoruyub saxlamışdır.

Ölkəmizdə formalaşmış milli mənlik şüuru, azərbaycançılıq ideologiyası, bu ideologiyanın tərkib hissəsi olan türkçülük məfkurəsi bu gün özünün minilliklərin dərinliklərindən gələn möhkəm köklərinə qayıdır. Bu qayıdış müqabilində vaxtilə yasaqlanmış mövzular, hətta XX əsrin sonlarınadək az qala unutdurulmuş tarixi gerçəkliklər üzə çıxır, tarixin qaranlıq məqamlarına işıq salınır. Bu mənada Əli Tudənin **“Türklər” poeması**[22] diqqətçəkəndir.

---

[20] Yenə orada

[21] Salmanov Ş. Vahid vətən hissi ilə. “Ədəbiyyat qəzeti”, 2004, 30 yanvar, səh.5

[22] Tudə Ə. Mənim səsim. Bakı: Azərbaycan, 2002, s.413-463

Azərbaycan insanının azadlıq ideyaları, Vətən həsrətli düşüncələr, doğma yurda bağlılıq, səmimi sevgi guyğuları Əli Tudə poeziyasının mayasını təşkil etsə də əksəriyyətinin sonluğunda gələcəyə yönələn nikbin ruh hökm sürür.

Şairin milli qəhrəmanları Azərbaycanı göz bəbəyitək sevən, onun hər qarışı uğrunda canını qurban verməyə hər an müntəzir olan, həmçinin bəşər övladını müqəddəs arzu və istəklərlə sevən insanlardır. Onlar - istər qadın olsun, istərsə də kişi, abırlı və ismətli olduğu qədər də ədalətli və haqqı tanıyanlardır. Əli Tudənin poetik qəhrəmanları məhz kökdən gələn bu kimi mənəvi keyfiyyətlərin daşıyıcısıdırlar.

Əli Tudənin mövzu müxtəlifliyi baxımından bir-birindən fərqlənən poeziya nümunələri müasir ədəbiyyatı səciyyələndirsə də şairin poetik deyim tərzi, bədii peyzajları, axıcı təhkiyəsi şifahi xalq ədəbiyyatından, klassiklərimizin yaradıcılığından yetərincə bəhrələnmişdir. "Əli Tudə Azərbaycan şeirinin böyük ənənələrinə bağlı olan, bu ənənələri sevən və inkişaf etdirən şairlərimizdəndir."[23] Poetik müşahidələrin dərinliyindən və itiliyindən, bəzən şirin, bəzən də ağrılı-acılı düşüncələrin, bəzənsə küskün hisslərin vəhdətindən yaranmış bu poeziya nümunələrində Azərbaycan ədəbiyyatının özünəməxsus ahəngi apaydın duyulur. Bədii ifadə vasitələrindən yerli-yataqlı istifadə edən, xalq yaradıcılığından yetərincə yararlanan şairin yaradıcılığı ideya-bədii cəhətdən də özünəməxsus dəst-xəttilə seçilir. İdeya-məzmun xüsusiyyətlərinə görə Azərbaycan ədəbiyyatında özünə layiqli yer tutmuş əsərlərin müəllifi xalqın canlı danışıq dilinə poetik çalarlar qataraq bədii dilin xüsusiyyətlərinə xələl gətirmədən qəhrəmanlarını özünəməxsus şəkildə dilləndirməyi bacarmışdır. Əli Tudəni fərqləndirən cəhətlərdən biri də şeir dilinin səmimi və rəvan olmasıdır.

**Üçüncü yarımfəsildə** ("Povest və hekayələri") Əli Tudənin bədii nəsri araşdırılır. Nəsrə çox gec gəlmiş Əli Tudənin "Tellərdə çırpınan həsrətlər" adlı ilk nəsr kitabı 1983-cü ildə işıq üzü görmüşdür. 1986-cı ildə çapdan çıxmış "Öz gözlərimlə" kitabında şairin Cənub xatirələrinin bir qismi yer almışdır. Əsərdə Milli hökumətin bir illik fəaliyyətinə yer verilir, o cümlədən Təbriz Dövlət Filarmoniyasının yaradılmasından söhbət açılır. 1990-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən nəşr olunmuş "Mənə elə baxma" kitabında şairin müxtəlif illərdə qələmə aldığı povest və hekayələri toplanmışdır.

Əli Tudənin "Zindanda ağarmış saçlar" adlı ilk hekayəsi Seyid Cəfər Pişəvəriyə həsr olunmuşdur. Hekayədə insan sədaqəti başlıca meyar kimi götürülür. Burada Milli hökumətin süqutu kədərlə xatırlanır. İnsanlara inqilab rəhbərin dili ilə mübariz ruh aşılanan hekayədə mühacirət həyatının məşəqqətləri, ağrı-acısı qələmə alınmış, gələcəyə istiqamətlənən nikbinlik vurğulanmışdır.

---

[23] Rüstəmxanlı S. Savalan şairi / Tudə Ə. Mənim səsim. Bakı:Azərbaycan, 2002, s.12

“Yaşıl orkestr”, “Lent yazıları”, “Qaval”, “Yallı” Təbriz filarmoniyası, “Günahdan betər savab”, “Göz dağı”, “Baxtın da baxtı var”, “At sədaqəti”, “Qəfil dəvət”, “Sarı işıq”, “Sevdalı yaylaq” hekayələri Cənubi Azərbaycanın kənd həyatı ilə bağlı xatirələrdən qaynaqlanır. Onun bu məzmunda qələmə aldığı 100-ə yaxın hekayəsi şəxsi arxivində əlyazma şəklində saxlanılır. Bu xatirələrdə XX əsr Cənubi Azərbaycan inqilabi hərəkatının, buradakı tarixi prosesin, həyat və məişətinin maraqlı, oxucuları düşündürə biləcək məqamları öz əksini tapmışdır. Şair nəsr əsərlərində şifahi xalq ədəbiyyatı nümunələrindən də kifayət qədər bəhrələnmiş, eşitdiyi hadisə və əhvalatlardan, atalar söz və məsəllərindən geniş istifadə etmişdir.

Əli Tudə nəsrinin bir özünəməxsusluğu da ondadır ki, o, bəzi hallarda öz şeirlərini hekayə daxilində verməklə bərabər, həm də bir sıra hekayələrində özünün poetik misralarını epiqraf kimi işlədir. Bu da onun nəsr əsərlərinin bədiiliyini bir az daha qüvvətləndirməyə xidmət edir.

**“Vətən parçası” povesti**[24] orijinallığı, ideya-bədii məzmunu etibarilə fərqli xüsusiyyətlərə malikdir. Hadisələr Milli hökumət dövründə Təbrizdə cərəyan edir. Lirik qəhrəman Əli Tudənin özüdür; əsas süjet xətti Təbriz Dövlət Filarmoniyasının müdiri olarkən məhz onun ətrafında qurulmuşdur. Söhbət vətənpərvər, qeyrətli, ziyalı Vətən oğullarından gedir. Əsərdə Nəzərin timsalında zəhmətkeş insan, sakit və ağır təbiətə malik, təmiz vicdanlı ata və vətənpərvər ziyalı obrazı yaradılmışdır.

Əsərin dili sadə və axıcı olub ürəyəyatımlıdır. Xalqın xoş ovqatlı, eyhamlı, sərrast, canlı danışıq dilinə böyük üstünlük verilən əsər bədii ümumiləşdirmələr, obrazlı ifadə və maraqlı bənzət mələrlə də diqqət çəkir.

Əli Tudənin nəsr əsərləri səmimiyyəti ilə sevilir, tarixiliyi ilə diqqət çəkir. Azərbaycançılıq təfəkkürü ilə yanaşı şərqlilik ab-havasının hökm sürdüyü bu əsərlərin ədəbi-bədii qayəsi müasir oxucunu düşünməyə vadar edir, onun mənəvi tələbatını ödəyə bilir.

Onun hekayələrinin süjeti yəqin ki elə öz həyatından götürülmüşdür: nəsr əsərlərinin əksəriyyətini ömrü mübarizələrdə keçmiş bir azəri türkünün həyat tarixçəsi adlandırmaq isə daha düzgün olardı.

**Dissertasiyanın III fəsli “Əli Tudənin ədəbi-tənqidi görüşləri”** adlanır. Bu fəslin **birinci yarımfəsildə** (“Ədəbi-tənqidi və publisistik məqalələri”) qeyd olunur ki, Əli Tudə yaradıcılığında ədəbiyyatşünaslıq məsələləri, eləcə də publisistika önəmli yer tutur. Məhsuldar şair vaxtaşırı olaraq mətbuat səhifələrində ədəbi-tənqidi məqalələrlə çıxış etmiş, bir çox kitablara ön söz, gənc şairlərə uğurlu yol, müxtəlif səpkili bədii əsərlər haqqında rəy və resenziyalar yazmış, öz qələmini publisistika sahəsində də sınamışdır.

---

[24] Tudə Ə. Mənə elə baxma. Bakı: Gənclik, 1990, s.227-276

“Təbəssümlü baxışlar” [25] məqaləsi M.İbrahimov, “Vətənpərvər sənətkarın ünsiyyət dünyası” [26] S.Vurğun, “Yaddaşlara köçən məclis” [27] məqaləsi isə C.Xəndan və “Şairlər məclisi” ilə bağlı xatirələrdən qaynaqlanır. “Zamanın çağırışı ilə” məqaləsində Müşfiqin yaradıcılığından, “Görüşə tələsən sətirlər” məqaləsində şair İ.Cəfərpurun Azərnəşrdə çap olunmuş “Yenə görüşərik” kitabından, “Ürəkdə işıq yananda” M.Afiyətin “Ürəkdə işıq” kitabından danışılır. Müxtəlif illərdə “Ədəbiyyat və incəsənət” qəzetinin səhifələrində Ə.Tudənin yaradıcılığa yeni qədəm qoymuş Sabir Əmirov, Aqşin Babayev, Nazim Rizvan, Zərxanım Ülvi, Fətəli Sahib kimi gənclərin bədii yaradıcılığı ilə əlaqədar müxtəlif səpkili yazıları dərc edilmişdir.

“Kənd həyatı” jurnalında dərc edilən “Dağ iradəli insanlar arasında”[28] məqaləsində kənd həyatından danışılır. Əmək və müharibə qəhrəmanları timsalında şair bədii ümumiləşdirmədən ustalıqla istifadə etmışdır.

Onlarca bu kimi əsərlərdə şair maraqlı priyomlardan istifadə edir. Bəzən vəsf etdiyi qəhrəmanlarının həyatının, yaradıcılığının müəyyən məqamları, yaxud da müəyyən detallar, yaxud da keçirdiyi hisslər əsas götürülərək mənalandırılır, poetik löhhələr, yaddaqalan səhnələr yaradılır.

III fəslin “Əli Tudə ədəbinəzəri fikirdə” başlıqlı **ikinci yarımfəslində** vətəndaş şair, yazıçı və ictimai xadimin – Əli Yudənin haqqında olan çoxsaylı məqalələr təhlil edilir. Burada ədibin şəxsiyyətinə və yaradıcılığına verilən qiymətlər ümumiləşdirilir.

Tədqiqatın **“Nəticə”** hissəsində əsas müddəalar ümumiləşdirilmişdir. Qeyd edilmişdir ki, Əli Tudə hər şeydən öncə **inqilabçı** idi. 20 yaşında ikən şair inqilabi çağırışlarla Cənubda xalq kütlələrinin azadlıq mübarizəsinə ruhlandırılmasında əlindən gələni etmişdir. O, üstündən barıt qoxusu gələn **səngər şairi** idi. 22 yaşında Cənubda Milli hökumətin dəstəyi ilə yaratdığı Dövlət filarmoniyasının rəhbəri, həmçinin Maarif Nazirliyində şöbə müdiri olduğu müddətdə **ictimai-siyasi xadim** kimi tanınmış, **təşkilatçılığı** ilə yanaşı **xalqın mədəni irsinin** yorulmaz **təbliğatçısı** kimi də mühüm işlər görmüşdür.

Əli Tudənin çoxşaxəli yaradıcılığında poetik əsərlər başlıca yer tutur. **Yazıçılıqda** da qələmini sınamış Ə.Tudənin sağlığında işıq üzü görmüş 30-dan çox kitabının üçü nəsr əsərlərini əhatə edir. Bu kitablardan birində ədibin xatirələri toplanmışdır. Həmin xatirələr Azərbaycan ədəbiyyatşünaslığı və tarixi baxımından **memuar** ədəbiyyatımızın gözəl nümunələridir. Şair **Vətən mövzusunda** çoxsaylı şeirlərin müəllifidir. Vətənin birliyi, müstəqillik arzusu başlıca yer tutan bu şeirlərdə **Cənub həsrəti**, istiqlal nəğmələri,

---

[25] Tudə Ə. Təbəssümlü baxışlar. “Ədəbiyyat və incəsənət” qəz., 1981, 16 oktyabr, s.5

[26] Tudə Ə. Vətənpərvər sənətkarın ünsiyyət dünyası // “Ulduz” jurnalı, 1987, № 3, s.39

[27] Tudə Ə. Yaddaşlara köçən məclis. “Ədəbiyyat və incəsənət” qəz., 1980, 18 iyul

[28] Tudə Ə. Dağ iradəli insanlar arasında // “Kənd həyatı” jurnalı, 1977, № 9, s.32

azadlıq hissləri geniş şəkildə qələmə alınmışdır. Poeziya yaradıcılığında siyasi lirikaya böyük önəm verən şair Cənubi Azərbaycan demokratik ədəbiyyatının yaradıcılarından biri olmuşdur.

Ana, Vətən kimi müqəddəs duyğulardan sonra şairin ən çox müraciət etdiyi mövzulardan biri də doğma yurdun **təbiətinin tərənnümüdür**.

Şairin şeirləri içərisində insanın **sevgi duyğuları** öz ülviliyi, müqəddəsliyi, tərbiyəvi xüsusisyyətləri ilə diqqət çəkir.

**Uşaqlar üçün yazılan şeirlərin** də böyük tərbiyəvi əhəmiyyətini vurğulamaq lazımdır. Böyüklərə hörmət, ata-anaya məhəbbət, doğruçuluq, dürüstlük, vətənpərvərlik, doğma yurda bağlılıq kimi nəcib insani keyfiyyətlərin baçlıca yer aldığı bu poetik parçalarda dilin təmizliyi, anlaşıqlı ifadə və deyim tərzi başlıca meyar kimi diqqət çəkir.

Əli Tudə şeirin texnikasını mükəmməl bilmiş, poeziya yaradıcılığında vəzn, qafiyə, ölçü kateqoriyalarına və ədəbiyyat nəzəriyyəsinin bu kimi digər qayda-qanunlarına riayət etmişdir.

Əli Tudə şifahi xalq ədəbiyyatını - **folkloru** mükəmməl bilmişdir.

Əli Tudə yaradıcılığında **ədəbiyyat məsələləri** də diqqətdən kənarda qalmamışdır. O, həmçinin publisistika sahəsində də öz məhsuldar qələmini sınamışdır. Müəllifin bu yöndə yazdığı məqalələr ədəbiyyatşünaslıq elminə verilən töhfələr hesab edilməlidir. "Ədəbiyyat və incəsənət", eləcə də "Azərbaycan" qəzetlərində, həmçinin Azərnəşrdə işlədiyi müddətdə həm **publisist**, həm də **naşir** kimi təcrübəli bir mütəxəssis olduğunu sübuta yetirmişdir. O, mükəmməl **tərcüməçilik** fəaliyyəti də göstərmiş, bir sıra əsərləri dilimizə çevirmişdir. Yazıçılar Birliyinin İdarə heyətinin üzvü olduğu illərdə isə Azərbaycan **ədəbiyyatının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi** işində yaxından iştirak etmişdir.

Şair bütün əsərlərində Azərbaycan dilinin saflığına xüsusi diqqət yetirmiş, dilimizin yad ünsürlərdən təmizlənməsi işinə xüsusi tələbkarlıqla yanaşmışdır. Məhz elə bunun nəticəsidir ki, Əli Tudə hələ gənc yaşlarında Cənubda ilk dəfə işıq üzü görən **Azərbaycan dili dərsliyinin** yaradılmasında tükənməz enerji və var qüvvə ilə çalışmışdır.

Moskvada rus dilində nəşr edilən kitabları şairin bəşəri hisslərinin, azadlıq duyğularının daha geniş coğrafi məkanda yayılmasına zəmin yaratmışdır. "Moskovski pisatel" nəşriyyatında işıq üzü görən əsərləri sayəsində keçmiş Sovet İttifaqının **rusdilli oxucuları** görkəmli şairin yaradıcılığı ilə yaxından tanış olmuşlar.

Vətənpərvər və mübariz şairin əsərləri bundan sonra da neçə-neçə ədəbiyyatşünas-alimin tədqiqat obyekti olmalıdır. Bu sırada Əli Tudənin Təbriz dövrü; Bakı həyatı; Milli hökumət dövrü; Cənub həsrəti; naşirlik fəaliyyəti; ayrılıqda poeziya və nəsr yaradıcılığı;poemalarının fəlsəfəsi; ədəbiyyatşünaslıq məsələləri haqqında məqalələri; publisistikası; dil və üslub xüsusiyyətləri; azadlıq ideyalarının tərənnümü; yaradıcılıq xüsusiyyətləri;yenə də ayrıca təbiət və sevgi motivləri; dördlük və səkkizlikləri və s. kimi istiqamətləri bəri başdan qeyd etmək mümkündür.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:

1. Savalandan süzülən pak duyğular. “Azərbaycan” jurnalı, №4, 2004, səh. 202-205

2. Vətən və həsrət motivləri, “Azərbaycan” jurnalı, №7, 2011, səh. 178-182

3. Azərbaycan şairi Əli Tudə və rus ədəbiyyatı. Ukrayna EA-nın Xəbərləri (rus dilində), 2012, №9, səh. 367-370

4. Mühacir-şair ömrü, “Azərbaycan” jurnalı, 2012, №5, səh. 174-177

5. Azadlıq şairi Əli Tudənin “Türklər” poeması haqqında, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2012, №2, səh. 287-290

6. Bütövlük şairi. “Azərbaycan” jurnalı, 2013, №6, səh. 180-183 səh. 5

7. Gerçək həyat hadisələrinin bədii təsviri (Əli Tudənin povest və hekayələri haqqında). Nizami adına Ədəbiyyat İnstitutunun “Ədəbi əlaqələr” toplusu, 2014, VIII, səh. 266-231

8. Milli hökumətin dövlət xadimi, mühacir ədəbiyyatın mücahidi. Görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru Aida İmanquliyevanın 75 illiyinə həsr olunmuş “Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik” mövzusunda Beynəlxalq elmi konfransın materialları, 2014, 10-11 oktyabr 2014, səh. 482-485

9. Əli Tudənin poeziyası haqqında. Nizami adına Ədəbiyyat İnstitutunun “Poetika. izm” jurnalı. 2014, №1, səh. 158-163

**А.М.ШУКЮРОВ**

# ТВОРЧЕСКИЙ ПУТЬ АЛИ ТУДЭ

## РЕЗЮМЕ

Диссертационное исследование посвящено жизни и творчеству известного азербайджанского поэта Али Тудэ. Объектом научного анализа являются поэзия, проза и литературно-критические взгляды А.Тудэ.

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы. Во введении обоснована актуальность темы, определены степень её разработанности, а также объект, цель и задачи, методологическая основа, научная новизна, теоретическая и практическая ценность исследования, даны сведения о его апробации и структуре.

В трёх разделах первой главы («Жизнь Али Тудэ и литературно-общественная среда») даются обстоятельные сведения о детстве, школьных годах, первых пробах пера – стихах, публиковавшихся за подписью «Гейдар Рзазаде», и тебризском периоде жизни поэта, наполненном борьбой и преодолениями. Особо подчёркивается роль бабушки Гяриб в его воспитании, а также влияние на его творческое формирование общения и близости с различными литераторами.

Вторая глава («Художественное творчество Али Тудэ») состоится из трёх разделов. В первом разделе охарактеризовано жанровое многообразие его поэзии, на конкретных примерах анализируются свободолюбивые стихи – и в данном контексте ностальгические мотивы, тоска по Родине, – любовная, пейзажная лирика, образцы творчества, предназначенные для детей. Во втором разделе исследуются поэмы Али Тудэ. Объектом обстоятельного анализа являются такие поэмы (всего 55 поэм), как «Последнее слово заключённых» – из южноазербайджанского периода жизни поэта, «Тюрки», характеризующаяся идеей общетюркского духовного единства, и др. В третьем разделе исследована проза – повести и рассказы. Основное внимание направлено на характеристику особенностей языка, историзма, художественных особенностей прозы, в контексте которых рассмотрены образы героев, приветствующих победу народной революции, создание в Южном Азербайджане Национального правительства.

В третьей главе («Литературно-критическое взгляды Али Тудэ») диссертации рассмотрены литературно-критические взгляды поэта. К анализу привлекаются приоритетные литературоведческие позиции, публицистика автора. Объектом рассмотрения являются критические статьи, отзывы, рецензии на различные произведения, опубликованные в периодической печати.

В «Заключении» обобщены основные положения исследования.

**A.M.SHUKUROV**

## ALI TUDE'S CREATIVE WAY

## SUMMARY

The research deals with the life and creativity of Ali Tude, Azerbaijani prominent poet. In this article poet's poetry, prose and literary-critical views is investigated from different creative directions.

In the introduction is given information about the urgency of the theme, the object of study, development, goals and objectives, scientific-theoretical and methodological bases, scientific innovation, subject, scientific-theoretical and methodological importance, approbation and structure of the dissertation.

The first chapter ("Ali Tude's life and literary-social environment") is deals with Ali Tude's life and literary-social environment which covering the poet. In three subchapter detailed information is given about poet's childhood period in Baku, school years, first poems with the signature "Heydar Rzazade"and his life in Tabriz which is full of challenges. Especially is told about his grandmother, Garib's effort in his period of growth, also deals with his sociability with different literary personalities on forming his life and creativity.

The second chapter ("Ali Tude's literary creativity") that is divided into three subchapter deals with Ali Tude's artistic creativity. In the first subchapter poet's sense of freedom, love of country, poetry about separation, regret, the poems about nature, love and poems for children is analyzed. In the second subchapter of the second chapter the poems of the poet have been chosen as an object of analysis. Ali Tude was the author of 55 poems. This chapter deals with Ali Tude's poem "Prisoners' last word" about his life in the South and "Turks" in which the main purpose was call for spiritual unity of Turkic and other poems. The third subchapter is about the novels and stories of the author. The literary heroes which welcomed the victory of the people's revolution and establishment of the national government in South Azerbaijan is described. It is emphasized that the interesting and instructive life realities are told by literary characters that defined the typical Azerbaijani. These heroes are rebellious, fighter, proud, faithful and sufferer people.

The third chapter ("Ali Tude's literary criticism views") of the thesis is about Ali Tude's literary-critical views. In Ali Tude's creativity the literature issues and the publicism of the author is analyzed. The literary critical articles, the feedback and reviews on work of art of the poet has been researched.

In the "Result" of the article the main provisions has been summarized.

Kağız formatı 60x84 1/16.
Şərti çap vərəqi 1,3.
Tiraj 100.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**АГАГУСЕЙН МАМЕДГУСЕЙН оглы ШУКЮРОВ**

# ТВОРЧЕСКАЯ ПУТЬ АЛИ ТУДЭ

5716.01. – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**Баку-2014**